# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rayon sakinlərinə

# TƏBRİKİ

***Hörmətli qəbələlilər !***
***Mehriban dostlar!***

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir, Sizə ən xoş arzularımı bildirməkdən məmnunluq duyuram!

2016-cı il artıq tarixə qovuşur. Yola salmaqda olduğumuz il Qəbələ rayonu üçün uğurlu olmuş, qarşımızda duran bütün vəzifələr yüksək səviyyədə icra olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə həyata keçirilən genişmiqyaslı yeni infrastruktur layihələri, aparılan nəhəng abadlıq, tikinti-quraşdırma və bərpa işləri, hərtərəfli iqtisadi tərəqqi hamımızda fərəh hissi doğurur. Bütün sahələrdə qazanılan nailiyyətlər, ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf xəttinin cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi təzahürüdür.

Ölkədə həyata keçirilən quruculuq işləri rayonumuzun sosial-mədəni həyatının tərəqqisinə də böyük töhfələr vermişdir. Bütün sahələrdə əldə edilən nailiyyətlər şəhərimizin, qəsəbələrimizin və kəndlərimizin görkəmini başdan-başa dəyişmişdir. Qəbələ indi nəinki Azərbaycanda, eləcə də bütün dünyada nadir turizm bölgəsi və unikal mədəniyyət mərkəzi kimi şöhrətlənmişdir.

Dövlət başçısının Qəbələyə göstərdiyi böyük diqqət, sosial-iqtisadi yüksəlişin yeni hədəflərinin müəyyənləşdirilməsi istiqamətində aparılan məqsədyönlü iş onu deməyə əsas verir ki, 2017-ci ildə nailiyyətlərimiz daha da artacaq, rayonumuzun inkişafı üçün əlavə imkanlar yaranacaqdır.

***Hörmətli qəbələlilər!***

Sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, təzə ildə hər birinizə yeni-yeni nailiyyətlər, uzun ömür, cansağlığı, hər bir ailəyə xoş əhval-ruhiyyə, firavanlıq arzulayıram!

***Yeni iliniz mübarək!***

**Səbuhi Abdullayev,**
**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı.**
*Qəbələ şəhəri,*
*30 dekabr 2016-cı il.*

# Rayon icra hakimiyyətində müşavirə

Qəbələ Rayon İcra Hakimiyyətində 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 2016-cı təqvim ilinin başa çatması ilə əlaqədar geniş müşavirə keçirildi.

Toplantıya rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, yerli inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri və ictimai birliklərin təmsilçiləri dəvət olunmuşdu.





Müşavirəni rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq bütün tədbir iştirakçılarını 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təbrik etdi. Bu bayramın ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımızın və həmvətənlilərimizin respublikamızla əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin yaradılması işində mühüm rol oynadığını bildirdi. O, qeyd etdi ki, 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev soydaşlarımızın milli birliyinin yaradılmasının əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.

Səbuhi Abdullayev Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün xalqımızın birlik simvolu olduğunu və dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlıların arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynadığını diqqətə çatdırdı.

Sonra gündəlikdə duran digər məsələlərə baxıldı.

İclasda ilin yekunu ilə əlaqədar hesabat xarakterli sənədlərin və məlumatların icrasının vaxtında başa çatdırılması, təhsil müəssisələrində, uşaq bağçalarında, tibb məntəqələrində və digər sosial obyektlərdə mövsümi işlərin nəzarətdə saxlanılması, qeyri-iş günlərində xidmət təşkilatlarının gücləndirilmiş iş rejimində çalışması və s. aktual məsələlər ətraflı müzakirə olunmuş, müvafiq tapşırıqlar verilmişdir.

Müşavirəni Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

***"Qəbələ".***
**İlkin Vəlizadə.**

***Əziz Əliyev–120***

# Görkəmli alim və dövlət xadimi

Ötən əsrin görkəmli dövlət xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyev 1897-ci ilin yanvar ayının 1-də qədim Azərbaycan torpağı İrəvan quberniysının Hamamlı kəndində anadan olmuşdur.



Əziz Əliyev 8 yaşından rus-tatar (Azərbaycan) məktəbində oxuyub və ibtidai təhsilini həmin məktəbdə alıb. Lakin burada verilən təhsil Əziz Əliyevi qane etmədiyindən o, 1908-ci ildə İrəvandakı gimnaziyaya daxil olur və 1917-ci ildə buranı əla qiymətlərlə başa çatdırır. Maddi cəhətdən təhsilini davam etdirə bilməyən Əziz Əliyev məktubla Bakı milyoncusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə müraciət edib və onun mesanantlığı ilə Sankt-Peterburqa gedərək Rusiya Hərbi Tibb Akademiyasına daxil olub.

1918-ci ilin yay tətilini evlərində keçirmək üçün İrəvana qayıdan Əziz Əliyev nankor erməni daşnaklarının azərbaycanlılara qarşı qəddarlıqlarına tab gətirmədiyi üçün ailəsi ilə bilikdə Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndinə köçüb. Ailənin ağır vəziyyəti və ermənilərin törətdikləri qırğınların fəlakətli nəticələri Əziz Əliyevi Sankt-Peterburqa qayıtmaq, təhsilini davam etdirmək imkanından məhrum edib.

Şahtaxtı əhalisi, o cümlədən Əziz Əliyevin ailəsi erməni zülmünə dözməyərək Arazı keçib və Cənubi Azərbaycanın Ərəblər kəndində daldalanıb. Birillik tibbi təhsili olduğu üçün o, burada həkim köməkçisi kimi çalışmışdır. Nəhayət onlar 1921-ci ildə yenidən Şahtaxtı kəndinə qayıda biliblər və Əziz Əliyev bir müddət kənddə həkim köməkçisi işləyib.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçüb. Bu andan etibarən onun həyatının yeni mərhələsi başlanıb. Bakıda ilk vaxtlar Azərbaycan Xalq Komissarları Şurasında iş icraçısı, ümumi şöbə müdirinin müavini, nəhayət, Xalq Komissarları Şurasının katibi vəzifəsini icra edib. O, bu vəzifələrdə çalışmaqla yanaşı 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini də BDU-nun tibb fakültəsində böyük uğurla davam etdirib və 1927-ci ildə universiteti bitirmişdir.

Əziz Əliyev uzun illər Azərbaycan Tibb Universitetinin və Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru, Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, Azərbaycan Respublikasının Xalq Səhiyyə Komissarı, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Partiya Komitəsinin birinci katibi və başqa yüksək vəzifələrdə çalışmışdır.

Əziz Əliyev hansı sahədə və vəzifədə çalışmasından asılı olmayaraq tibb üzrə elmi axtarışlarını bir an belə dayandırmayıb. O, universiteti bitirəndən iki il sonra 1929-cu ildə namizədlik, 5 il sonra isə doktorluq dissertasiyasını müdafiə edib. Onun «Klinik analizlər» adlı dərsliyi tələbələr tərəfindən rəğbətlə qarşılanıb. Əziz Əliyevin vətən və xalq qarşısındakı xidmətləri—görkəmli həkim və alim, əla səhiyyə təşkilatçısı, səriştəli rəhbər və təcrübəli dövlət xadimi kimi yüksək qiymətləndirilib. O, iki dəfə Lenin Ordeni, Qırmızı Əmək Bayrağı Ordeni, I dərəcəli Vətən müharibəsi ordeni, «Səhiyyə əlaçısı» döş nişanı və bir çox medallar, fəxri fərmanlarla təltif edilib.

Dağıstanda işləyərkən Dağıstan zəhmətkeşləri Əziz Əliyevə üzərində onun əksi həkk olunan xüsusi medalyon bağışlayıb və bu xalq məhəbbətindən doğan ali duyğuların təntənəsinə çevrilib. Həmin medalyon Azərbaycanın Dövlət Tarix Muzeyində mühafizə olunub saxlanılır. Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə bu görkəmli dövlət və elm xadiminin adını daşıyır.

Bir sözlə, Əziz Əliyev bir evə, bir ailəyə, bir obaya sığmayan bəşəri bir şəxsiyyətdir. Onun parlaq ömür yolu gənclərimizə örnək, gələcəyimizə çıraqdır.

**Aslan CƏLİLOV.**

## *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN YANVAR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBUL-GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Zarağan kəndi | 10.01.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Kiçik Pirəli kəndi | 17.01.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Qəmərvan kəndi | 24.01.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Xırxatala kəndi | 31.01.2017 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.